**VƏTƏN VAR**

Hardaysa bu
dəmdə
dəryada batan var.
Vardırsa köməksiz,
fəryada çatan
var.
Dünyada alandan
əvvəlcə satan var.
Atəş öz-özündən,
birdən-birə
yanmır.
Bir şey bu cahanda
izsiz və səbəbsiz,
bihudə
yaranmır.
Vardırsa yaranmış,
Mütləq Yaradan var.
Varsansa…
özündən
əvvəlcə atan var.
Dünya quru bir səs,
qəm
çəkməyə dəyməz.
Yüz-yüz itən olsun,
min bir də bitən var.
Şükr
eyləyəlim ki,
bizlərdən həm əvvəl,
həm sonra Vətən var…



Bəxtiyar VAHABZADƏ

